# Doğmalar aranan yerdə





**Gülayə**

**Poeziya, ümumən, ədəbiyyat birmənalı olaraq həmişə o məqamdan qaynaqlanır və oxucu yaddaşına sirayət edir ki, müəllif milyonları düşündürən, sadə, həqiqət olsa da belə, nədənliyi, cavabı adi münasibətlərlə hesablanmayan suallara cavab arayır.**

Özü də bu yaşamında heç vəchlə hökm vermir, mütləq münasibət sərgiləmir, daha çox düşüncələrinə sual axtaran oxucunun marağınca özü də bu ovqata köklənir. Filologiya üzrə fəlsəfə doktoru, şair-publisist Fəridə Ləman da bu cür həyati suallara cavab tapmaq istəyi, məramı ilə oxucuyla bir aradadı. Zaman, vaxt-vədə ötüb keçdikcə, qloballaşan dünyanın texnoloji nəfəsi insani ünsiyyətin arasında daha çox lövbər saldıqca Fəridə Ləman ruhunca olan insanların "yadların istisinə bax, harda qaldı bu doğmalar?" intizarı, nigarançılığı da get-gedə poeziyanın cavablandıracağı suallar hücrəsinə daha çox üz tutası olur.

Fəridə Ləman səmimi, kövrək bir şair, eyni zamanda vətəndaş həssaslığı ilə nə qədər adi, saya görünsə də belə, cavabı heç də sadə olmayan suallar çevrəsində ona görə, belə duyğusallıqla ovum-ovum ovulub, qovurğa kimi qovrulur ki, dünyanın çoxbilmiş gedişatı qarşısında avam, sadəlövh durumuyla mat qalmışların taleyi, ömürgün yolu onun özünə çox doğma və tanışdı. Əvvəlcə ana bətnində, sonra ana qucağında, sonra öz doğma ana dilində adını dilinə gətirəndə, əziz adını dilində ümid kimi bitirəndə sevməyə və duymağa başladığı ana vətənin taleyi ilə bağlı hər hansı bir problemin ilk bünövrəsi Fəridə Ləman üçün məhz bu yadlaşma, doğma hənirlərin öləziməyə başlaması sindiromundan başlayır. O, bir şair kimi, yurdun, bəşəriyyətin taleyindən nigaran alim-vətəndaş kimi məhz bu arzuolunmaz yaşama qarşı həyəcan siqnalı verir, üz tutduğu əzan səsindən, könül verdiyi vətən torpağının halallığından təvəqqe edir ki, insan övladının bu nigarançılıqdan xilas olmasına yardımlarını əsirgəməsin, kömək etsin, lütfkar olsun... Hər yerdə əlimizdən tutan, bizə ümid verən, bizə yar olan Vərən torpağı ona görə F.Ləmanın başlıca öygü predmetidi ki, yaranışından bircə bu torpaq öz sevgisini, istəyini bizlərdən əskik etməyib. Ona görə də şair görübduyduğu rənglərin ahənginə, arıların pətəkdə balına, lalələrin qara xalına, Üzü haqqa yol alan sufi yoluna və s. bu qədər ürəkdən-candan etinalı, vurğundu. Vətən torpağını halallıq, paklıq dünyasına çevirən şəhid adına etinası, milli-mənəvi dəyərlərimizin solub-soluxmayan qüdrətinə heyranlığıyla bir arada yaddaqalan, unudulmaz və düşündürücüdür Fəridə Ləman yaradıcılığı. Qəlbinin ümid yeri olan vətəni və uca Allahını bir işıq, nur simvolu kimi əziz tutan Fəridə Ləmanın özünəməxsusluğunun bir əsas yönü də ondadı ki, o, vətəni, milləti yolunda böyük əmək sərf etmiş, Azərbaycan mədəniyyəti və ədəbiyyatının inkişafında müstəsna xidməti olan görkəmli insanların ömür yoluna da vətənin, ana yurdun bir ayrılmaz parçası kimi baxır, onların fəaliyyətini əsl vətəndaşlıq prizmasından incələyir. Diqqətli oxucular F.Ləmanın xalq şairləri Sabir Rüstəmxanlının, Nəriman Həsənzadənin, eləcə də tanınmış şairlərdən Aslan Kəmərlinin, Akif Səmədin yaradıcılığından və ömür yolundan bəhs edən məqalələrini ilk növbədə qədirbilən bir sənət adamının öz həmkarlarının yaradıcılığına, həyat yoluna həsdiz vurğunluğunun, ehtiramının ifadələri kimi xatırlayıram. Zahirən son dərəcə sakit, öz daxili dünyasına qapanmış qələm adamı təsiri bağışlayan F.Ləman daxilən bütün ədəbi nailiyyətlərə, işıqlı ünvanlara atəşin bir qəlb və sevgi ilə reaksiya verən, vaxtında xoş sözünü əsirgəməyən bir qələm adamıdı. Uzun illər onun baş redaktorluğu ilə işıq üzü görən "Məhsəti" jurnalına daxil edilən məqalələr, poeziya və nəsr nümunələri, elmi-publisistik araşdırmalar Fəridə xanımın yaradıcı bir insan olaraq ədəbiyyat camesinə nə qədər yaxından bələd olmasını özündə bütün dolğunluğu ilə ifadə edir. Bu bağlılıq və heyranlıq ilk növbədə onun həssas şair qəlbinin və münasibətinin var etdikləridi. Fəridə Ləman ədəbi yenilik və uğurlara etinalı, yeniliyi dəyərləridə bilən bir söz adamıdı. Doğma vətənini azadlığı, əhdi kimi sevə bildiyindəndi ki, onun adını, ünvanını əziz tutaraq yazıb-yaradan hər bir qələm əhlini özünə doğma bilir, doğma nəzərlərlə araşdırıb təbliğ edir. Köklü milli dəyərlərimizin bir para iddialı şou əhlinin basqısı ilə aşağılanmağa başladığı bir zamanda Fəridə Ləmanın vətənpərvərlik, dini-əxlaqi dəyərlər mövzusunda qələmə aldığı əsərləri daha dərin təəssübkeşlik hissi ilə oxunub, yadda qalır. Onun yaradıcılığı və fəaliyyəti çoxşaxəlidi. Ancaq bütün hallarda bu çoxşaxəlilik ümumən ədəbiyyatımızın, mədəniyyətimizin inkişafı və yaxşı yöndən təbliğinə hesablanıb. F.Ləmanın yaradıcılığını və elmi axtarışlarının ümumi mənzərəsini bir sözlə ifadə etmiş olsaq bu sözün məhz "qədirbilənlik", olduğunu lap ilkdən, başdan yazmış olarıq.

Bu dəyərlər günü-gündən qloballaşan dünyamızın ilkinliyinə olan yenilməz və heç vəchlə təravətini itirməyən bir könül dünyasından qaynaqlanır. Oxucu bu dəyərlərə olan etinasına görə F.Ləmanı bir şair, publisist, elm adamı, ən başlıcası, vətəndaş və ana olaraq sevir, imzasına dərin hörmət bəsləyir.